<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>HIST 280, Türk Arxeologiyası, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Tarix və Arxeologiya departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim(lər)</td><td>Orxan Zamanov</td></tr>
<tr><td>E-mail:</td><td>orkhan.zamanov@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>II və IV günlər</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Müəllimin təyin etdiyi vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Seçmə</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">A. Əsas:<br>1. Mühazirə mətnləri*<br>2. Arxeologiya. T.Dostiyev. B. 2020, 396 s. 313-340 səh.<br>3. Yıldırım, E. Türk bozkır kültürünün doğuşu: Andronovo kültürü / red. Göktürk Ömer Çakır. İstanbul, 2020, 356 s.<br>4. Sinor, D. (ed.). The Cambridge History of Early Inner Asia. Cambridge: Cambridge University Press. 1990. 518 p. 285-335 pp.<br>5. Кызласов И.Л. Алтаистика и археология. // М.: Институт тюркологии. 2011. 256 с. 32-77 стр.<br>B. Əlavə:<br>6. Zamanov, O. “Türk dövrü” maddi-mədəni irsinin arxeoloji tədqiqi problemi // Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış mövzusunda II Beynəlxalq elmi konf. materialları. Bakı: BDU nəşriyyatı, 2025.<br>7. Toraman, A. Türk tarihinin kaynakları: Altay’da Göktürk maddi kültürünün arkeolojik kaynaklarına genel bir bakış // Türk Tarihi Araştırmaları Dergisi / Journal of Turkish History Researches. 2019, c. 4, № 2 (Güz).<br>8. Yıldırım, E. Tunç çağı Andronovo kültürü mezarları ile Türkler arasındaki ilişkiler // Uluslararası Türk-İslam Mezar Taşları Kongresi Bildiriler Kitabı. Aydın: Adnan Menderes Üniversitesi Yayınları, 2018.<br>9. Средневековая археология евразийских степей. Материалы Учредительного съезда Международного конгресса. Т. I. Казань: Институт истории АН РТ, 2007. – 252 с.<br>10. Тюркское наследие Евразии VI-VIII вв./Науч.ред. А.Досымбаева. Алматы: 2012.<br>11. Худяков Ю.С. Вооружение кочевников Южной Сибири и Централной Азии в эпоху развитого средневековья. Новосибирск, 1997.</td></tr>
</table>

| | | |
|---|---|---|
| | 12. Qurbanov A. Damğalar, rəmzlər, mənimsəmələr. Bakı, 2013, 106 s.<br>13. Orxon-Yenisey abidələri. Əbülfəz Rəcəbov və Yunis Məmmədov. B.,1993.<br>14. Qədim Türklər, L. Qumilyov. B. 1993<br>15. Xəzərlər və Azərbaycan, F.Əsədov. B. 2018.<br>16. Мартынов А.И. Археология. Учеб. для бакалавров. М.2005, 2012. | |
| **İnternet resursları** | **http://www.ebooks.az/category_history.html, http://history.az/**<br>**http://www.tarix.gov.az/books.php,** | |
| **Kursun təsviri** | "Türk Arxeologiyası" fənni türk xalqlarının ən qədim dövrlərdən son orta əsrlərə qədər arxeoloji inkişaf xəttini, maddi-mədəni komplekslərini, mədəniyyət xüsusiyyətini və onların Avrasiya kontekstində yeri və rolunu tədris edir. Fənn çərçivəsində türk etnogenezinin arxeoloji aspektləri, erkən türk dövlətlərinin maddi-mədəni irsi, erkən və qədim türk etnoslarının maddi-mədəni markerləri, arxeoloji mədəniyyətləri, dəfn adətləri, hərbi inventar, yazı sistemləri və sənət nümunələri araşdırılır. | |
| **Kursun məqsədləri** | Məqsəd tələbələrə türk arxeologiyasının metodoloji əsaslarını, tədqiqat tarixini və müasir elmi yanaşmaları öyrətmək, "Türk Dünyası"nın tarixi-fenomenini və türk xalqlarının maddi-mədəniyyətini qlobal və regional tarix kontekstində və arxeoloji çərçivədə təqdim etməkdir.<br>**Fənnin məqsədləri:**<br>• Türk xalqlarının arxeoloji irsinin əsas mərhələlərini izah etmək<br>• Türk etnogenezinin maddi dəlillər əsasında öyrənilməsini təmin etmək<br>• Avrasiya çöl mədəniyyətlərinin arxeoloji xüsusiyyətlərini göstərmək<br>• Türküstan (Mərkəzi Asiya), Ural-Sibir-Altay, Qafqaz, Anadolu və Şərqi Avropada türk izlərini müqayisəli şəkildə öyrənmək<br>• Alimlərin fərqli konsepsiyaları və çağdaş tədqiqatları ilə tanışlıq yaratmaq | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələr:**<br>• Türk arxeologiyasının əsas anlayışlarını izah edə bilir<br>• Türk mədəniyyətlərinin xronoloji ardıcıllığını təqdim edir<br>• Arxeoloji tapıntılara əsaslanaraq türk etnogenezi barədə elmi mülahizə yürüdə bilir<br>• Dəfn ənənələrini, silahları, arxeoloji mədəniyyətləri, zoomorf və antropomorf incəsənət motivlərini təhlil edə bilir<br>• Orta Asiya və Qafqaz mədəni komplekslərini müqayisə edir<br>• Mədəniyyətlərin yayılma xəritələrini izah edə bilir<br>• Əsas arxeoloji tədqiqat metodlarını tətbiq edir | |
| **Tədris metodları** | **Mühazirə** | **X** |
| | **Qrup müzakirəsi** | **X** |
| | **Praktiki tapşırıqlar** | **X** |
| | **Praktiki məsələnin təhlili** | **X** |
| | **Digər** | **X** |

| Qiymətləndirmə | Komponentləri | Tarix/son müddət | Faiz (%), bal |
|---|---|---|---|
| | **Aralıq imtahanı** | **Əlavə olunacaq** | **30 bal** |
| | **Aktivlik/Yazılı tapşırıq** | **Semestr ərzində** | **8 bal** |
| | **Yoxlama yazı işi (quiz)** | **Mart ayının ilk həftəsi May ayının ilk həftəsi** | **10 bal (5+5)** |
| | **Layihə/Prezentasiya** | **Əlavə olunacaq** | **6 bal** |
| | **Yazı işi/məqalə** | **Əlavə olunacaq** | **6 bal** |
| | **Final imtahanı** | **Əlavə olunacaq** | **40 bal** |
| | **Yekun** | | **100 bal** |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Yoxlama yazı işi**<br>Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər. Kurs boyu bir yoxlama yazı keçirilməsi nəzərdə tutulur.<br>**Lahiyə/Prezentasiya**<br>Xəzər Universitetinin iştirak etdiyi layihədə aktiv fəaliyyət, eləcə də, fənn müəlliminin tərəfdaş olduğu elmi layihədə iştirak müvafiq bölmə üzrə tam bal təmin edir.<br>**Yazı işi/məqalə**<br>Fənn ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanmasındakı üstün bacarığına görə tam bal alır.<br>**Qeyd:** Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların qısa təsviri, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu dəqiq göstərilir.<br>Yazı işi/məqalənin təhvil verilmə tarixi müəllim tərəfindən elan ediləcək.<br>Mövzular sillabusda qeyd edilib.<br>**Prezentasiya və məqalələrin tərtibi qaydaları**<br>Fənn ilə bağlı seçmə mövzu ətrafında müstəqil elmi-kütləvi xarakterli məqalənin hazırlanması zamanı aşağıdakılara diqqət yetirilməlidir:<br>- Məqalə (Təqdimatlar) mövzusu müəllim tərəfindən hazır plan ilə təqdim olunur (Əlavə N1). Tələbə mövzunun mahiyyətinə uyğun müstəqil ad seçməkdə sərbəstdir.<br>- Plagiat halları qəti qadağandır!<br>- Məqalə 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır.<br>- Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır. | | |

- Məqalədə ən azı 8 şəkil və təqdimatda isə 5 slayd ola bilər.
- Məqalənin və ya Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd və elektron formatda olan nüsxə isə müəllimin elektron poçt ünvanına göndərilməlidir.
- Məqalə (Təqdimat) 8 bal ilə qiymətləndirilir. Məqalənin hazırlıq qovluğuna slayd şəkilli təqdimat əlavə olunsa və yüksək səviyyədə hazırlıq nümayiş etdirən tələbələr tam balı ala biləcəklər.
- Məqalə (Təqdimat) AAK-nın və ya rəsmi qəbul olunmuş istinadlanma ilə müşayət olunmalı, istifadə olunmuş mənbə və qaynaqlar dərs vaxtı auditoriyada nümayiş olunmalıdır.
- Hər bir tələbə fərdi şəkildə məqalə tərtib etməlidir. Məqalə başlığı və tərtib qaydaları Xəzər Universitetinin elmi jurnallarından olduğu kimi həyata keçirilməlidir və 5 A4 vərəqindən artıq olmamalıdır. Şəkil və cədvəllər məqalənin sonunda verilməlidir.

Təqdimatların ilk slaydına mövzunun adı verilməli və tələbənin adı, soyadı, ixtisası yazılmalıdır. Təqdimatın genişlənməsindən əvvəl - _____*.ppt, tələbənin ingilis şrifti ilə adı və təvəllüdü yazılmalıdır. Təqtimatdakı yazılar 12 şrift, TNR və 1 interval ilə tərtib olunmalıdır. Mütləq elektron nüsxə və illustrativ materiallar slayd şəklində müvafiq proqram təminatında yığılmalıdır. Minimum 8 şəkil və 5 slayd ola bilər. Təqdimatın mətni çap edilərək təqdim olunmalı, slayd isə müəllimin elektron poçt ünvanına göndərilməlidir. Təqdimata yüksək səviyyədə hazır olan tələbələr müvafiq tam balı ala bilir.

**Türk arxeologiyası fəninindən məşğələ (tapşırıq) ilə bağlı qeydlər.**

1) Yuxarıdakı proqramdakı mövzulara kurs boyu şifahi cavab verilməli və tövsiyyə olunmuş yerli və xarici dildə olan ədəbiyyatlardan istifadə olunmalıdır. Tələbə məşğələ zamanı mövzunu aydın izah etməli, sual-cavabda fəal olmalı və faydalandığı mənbələri əsaslandırmalıdır.

2) Dərs zamanı müxtəlif ədəbiyyatlardan istifadə etməsini təsdiqləyən qeydlər, mənbənin sürəti və ya kitabxanadakı inventarlaşma məlumatları olan tapşırıq dəftəri olmalıdır.

3) Məşğələ zamanı fəal olan tələbələr aktivlik balı ilə qiymətləndirirlər. Aktivlik 6 baldır və hər dərs hazır olan tələbə sonda ən yüksək balı ala bilir.

**İmtahanlar.**

Aralıq imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)
Mövzular: Giriş,
Final imtahanı (imtahanın keçirilməsi forması -yazılı, test və açıq suallar)
Mövzular:
Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir.
Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır.

**İmtahan qaydalarının pozuntuları.**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici

| | |
|---|---|
| | qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır.<br>**Fənni bitirmək qaydası.**<br>Universitetin qaydalarına uyğun olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60 və daha çox hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.<br>**Tələbənin davranış qaydaları.**<br>Dərs zamanı dərs prosesini pozmaq və qeyri-etik hərəkətlər etmək, yersiz və icazəsiz müzakirələr aparmaq, mobil telefondan, dinləyici qurğu və radiodan istifadə etmək, həmin dərsə aid olmayan digər fəaliyyətlə (kitab oxumaq, yazmaq, şəkil çəkmək və s.) məşğul olmaq qadağandır.<br>**Aktivlik**<br>Tam aktivlik balı dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi məşğələlərdə fəal iştirak edən tələbələrə verilir. Xəzər Universitetinin iştirakçısı olduğu layihədə aktiv fəaliyyət aktivlikdə nəzərə alınır.<br>**Davamiyyət**<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbə müəyyən üzrlü səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərslərdə iştirak edə bilmirsə, o zaman bu haqda fakültə dekanlığına məlumat təqdim etməlidir. Fənn üzrə ümumi dərs saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Dərsə gecikmə**<br>Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qayib yazılır. Buna baxmayaraq, tələbə dərsdə iştirak edə bilər. |

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix | Fənnin mövzuları | Dərslik/ Tapşırıqlar |
|---|---|---|---|
| 1. | **--.--.26** | **Mövzu 1.** ***Fənnlə və sillabusla ümumi tanışlıq. Mövzuya giriş.***<br>**Türk arxeologiyasına giriş: anlayışlar, coğrafi hüdudlar, metodologiya.** Tarixi arxeologiyanın mühüm tərkib hissəsi kimi “Türk arxeologiyası”.<br>**Mövzu 2. “Türk Dünyası” və “Türk dövrü” anlayışları və onların izahı.** Avrasiyanın türk mirası. | Mühazirə mətnləri;<br>A 2, s 10 |
| 2. | **--.--.26** | **Mövzu 3. Türk etnogenezinin arxeoloji aspektləri.** Türküstanda türk xalqlarının formalaşması prosesi və qədim türklərin təşəkkülü. Maddi mədəniyyətin əsas amilləri və mənbələri. Tipoloji və müqayisəli faktorlar.<br>**Mövzu 4. Türk etnogenezinin digər aspektləri.** Türklər və türk yazılı abidələri, Türkologiya və Orxon abidələri. Türklərin antropoloji xüsusiyyətləri, mövcud konsepsiyalar və nəzəriyyələr.. | Mühazirə mətnləri;<br>A 2, s 23 |

| | | | |
|---|---|---|---|
| 3. | --.--.26 | **Mövzu 5. Erkən prototürk hipotezləri.** Türklərin ilk ana yurdu məsələsi. Təkmərkəzli və çoxmərkəzli baxışlar. Türk miqrasiyaları və köçləri. "Altay nəzəriyyəsi" və digər konsepsiyaların mahiyyəti..<br>**Mövzu 6. Prototürklər, erkən türklər və qədim türklər. Anlayışların mahiyyəti və izahı.** | Mühazirə mətnləri;<br>A 2, s 31 |
| 4. | --.--.26 | **Mövzu 7. Arxeoloji mədəniyyətlərin təhlili**. Avrasiya çöllərinin arxeoloji tədqiqi tarixi və maddi-mədəni irsi. Taqar, Hüyuk və Pazırıq arxeoloji mədəniyyətlərinin mənsubiyyəti problemi və müasir araşdırmalar.<br>**Mövzu 8. Arjan 1 və 2, Pazırık kurqanlarının arxeoloji kompleksi.** Karasuk, və Andronova mədəniyyətinin müzakirəsi. Altay arxeoloji kompleksi | Mühazirə mətnləri;<br>A 2, s 35 |
| 5. | --.--.26 | **Mövzu 9. "Skif-Sak Dünyası" və türklər məsələsi.** "Skif-Sak" maddi-mədəni irsi və onun öyrənilməsi. Tarix, antropologiya, etnoqrafiya və dilçiliyin yanaşması.<br>**Mövzu 10. Skif mədəniyyəti və arxeologiyası dünya və Azərbaycan elmində.** | Mühazirə mətnləri;<br>A 2, s 37 |
| 6. | --.--.26 | **Mövzu 11. Hun arxeologiyası: Avrasiya miqyaslı yayılma.** Çetiasar arxeoloji mədəniyyəti.<br>**Mövzu 12. Hunlar və onların Avrasiyada arxeoloji izləri, arxeoloji mədəniyyətinin göstəriciləri və maddi-mədəni markerləri.** | Mühazirə mətnləri;<br>A 2, s 44 |
| 7. | --.--.26 | **Mövzu 13. "Türk dövrü"nün arxeologiyası.** Avrasiya türklərinin arxeoloji abidələri və Orxon-Yenisey abidələri.<br><br>**(YOXLAMA)** | Mühazirə mətnləri;<br>A 2, s 56 |
| | **Aralıq imtahanı (1-13-cü mövzular)** | | |
| 8. | --.--.26 | **Mövzu 14. Göytürk dövrünün arxeoloji markerləri və arxeoloji mədəniyyətləri**. Çaataslar arxeoloji mədəniyyəti.<br>**Mövzu 15. Türk dünyasının formalaşması və genişlənməsi.** Maddi-mədəni izlər və tədqiqatlar. "Runik" və ya Qədim Türk yazılı abidələrinin tədqiqi tarixi. | Mühazirə mətnləri;<br>A 2, s 62 |
| 9. | --.--.26 | **Mövzu 16. Uyğur arxeoloji irsi və sənət üslubu**. Uyğurlarım maddi-mədəniyyəti və urbanizasiya ənənəsinin yaranması. Türk dünyasında şəhər mədəniyyətinin və urbanizasiyanın başlanğıcı məsələsi.<br>**Mövzu 17. Xəzər xaqanlığının arxeoloji irsi və maddi-mədəniyyəti.** Saltovo-Mayatsk arxeoloji mədəniyyəti. Xəzər xaqanlığının və Volqa Bulqar çarlığının (Böyük Bulqarıstanın) şəhərləri və şəhər mədəniyyəti. | Mühazirə mətnləri;<br>A 2, s 71 |
| 10. | --.--.26 | **Mövzu 18. Qafqaz və Azərbaycan ərazisində türk dövrü arxeologiyası**. Türk arxeoloji irsinin tarixi Azərbaycanda | Mühazirə mətnləri; |

| | | | |
|---|---|---|---|
| | | tədqiqi və öyrənilməsi tarixi.<br>**Mövzu 19. Qədim türklərin yayılma arealı məsələsi və Qafqaz bölgəsində türk imperiyaları.** Türk dövlətçilik elementlərinin və atributlarının Avrasiya ərazisinə və Cənubi Qafqaza təsir etməsi. Türk damğaları və bayraq atributları. | A 2, s 313 |
| 11. | **--.--.26** | **Mövzu 20. Orta əsr türk dövlətləri: arxeoloji əsaslar və artefaktlar.** Şərqi Avropa, Qərbi və Şərqi Türküstan, Monqolustan və Orta Şərq regionlarında türk xalqları, tarfa ittifaqları və dövlət qurumları. Yetkin dövlətlər və xaqanlıqların (imperiyaların) maddi irsi.<br>**Mövzu 21. Türklər islamlaşma ərəfəsində.** İslamlaşamadan öncə türk xalqları, məişət və həyat tərzi, təsərrüfat formaları və maddi-mədəni markerlər. Digər dinlər və Tenqri (Tanrıçılıq) inancının mahiyyəti. Dəfn adətləri və qəbir kompleksləri. | Mühazirə mətnləri;<br>A 2, s 318 |
| 12. | **--.--.26** | **Mövzu 22. Türk dünyasında islamın yayılması və Türk-İslam birliyinin formalaşması.** Mərkəzi Asiya və Orta Şərqdə türk varlığının siyasi və mədəni hüdudlarının mahiyyəti. İslam mədəniyyətinin "Türk dünyası"na təsiri.<br>**Mövzu 23. İslam mədəniyyətinin və maddi-mədəni irsinin türk elementləri ilə zənginləşməsi.** Yaxın və Orta Şərqdə müsəlman türklər və onların maddi-mədəni irsi. | Mühazirə mətnləri;<br>A 2, s 321 |
| 13. | **--.--.26** | **Mövzu 24 Türk hərbi inventarı: silahlar, zirehlər, atçılıq mədəniyyəti**.<br>**Mövzu 25. Türk hərb işi və döyüş sənəti.** "Xalqların Böyük Köçü" dövründən – Xilafətin fəthlərinə kimi türklərin hərb sənəti. Eramızın VIII-XIII yüzilliklərin hərb işi və Türk Dünyası. | Mühazirə mətnləri;<br>A 2, s 328 |
| 14. | **--.--.26** | **Mövzu 26. Türk yazısı və epigrafik irs**. Orxon-Yenisey yazılı abidələri və ənənəvi türk yazı sistemi.<br>**Mövzu 27. Türk sənəti: zoomorf motivlər, metal işləmə və ornamentlər.** "Türk dünyası"nda sənətkarlıq və dəmirçilik ənənəsi. Türk naxış, bəzək və incəsənət tərtibatının özünəxas xarakteri. | Mühazirə mətnləri;<br>A 2, s 335 |
| 15. | **--.--.26** | **Mövzu 28. "Türk dövrü"nün sonu, İslamlaşma və Yeni dövrün türk xalqlarının maddi-mədəni irsi.** Türklər son orta çağda yeni iqtisadi münasibətlər və mədəni təsirlər dövründə.<br>**(YOXLAMA)** | Mühazirə mətnləri;<br>A 2, s 340 |
| 16. | | **Yekun imtahanı (14-28-ci mövzular)** | |

**Əlavə N1 Mövzular**

1) Türk yazısı (yaranması, yayılması və araşdırılması tarixi)
2) "Hun imperiyası" (tarixi və mədəni fenomen kimi)

3) Qədim Qafqaz və Türk Dünyası (coğrafi və etnik arealı, mədəni və sosial inkişafı, siyasi-hərbi və beynəlxalq durumu)
4) Qədim Türküstanda siyasi qurumlar
5) Osmanlı sülhü
6) Türk dünyası problemi müasir tarix və siyasət elmlərində
7) Prototürklər və Qədim Şərq (Qədim Şərq sivilizasiyaları)
8) Erkən və Qədim Türk dünyası və Antik dövr\sivilizasiya
9) Türklər və nomadizm
10) Altay nəzəriyyəsi (baxışlar, tədqiqatlar, miflər və gerçəklər)
11) Türküstanın daş dövrü arxeoloji mədəniyyətləri və abidələri
12) Türküstanın eneolit dövrü arxeoloji mədəniyyəti
13) Türküstanın tunc dövrü mədəniyyətləri və abidələri
14) Türküstanın dəmir dövrü mədəniyyətləri və abidələri
15) Türk memarlığı və şəhərsalma ənənəsi
16) Türk incəsənət və sənətkarlıq motivləri
17) Türk silahsazlıq və hərb ənənəsi
18) Türk dövlətçilik atributlarının arxeoloji izi
19) Türk dəfn adəti və qəbir abidələri
20) Türk xalqlarının qayaüstü incəsənəti və Türküstan petroqlifləri